# Sağaltmağa zamanın gücü yetməz Xocalı yarasını...

Yenə Xocalıdadırlar. Ayaqlarının altında doğma torpaqları, başlarının üstündə üçrəngli, ay-ulduzlu müqəddəs bayraqları var. Bu var olanlar xocalılıların ürəyinə təpər verir.

Azərbaycan dövləti onları yurdlarına qovuşdurdu. Xocalıda onlara yeni evlər tikildi. Geri döndülər. Həsrət, intizar bitdi. Daha Xocalı yuxularının qonağı deyil, yaşadıqları məkandır. Ancaq Xocalı sakini Sara Səlimovanın "Otuz üç il əvvəl olduğu kimi..." söyləməyə dili gəlmir.

"Otuz üç il qabaq Xocalıda anam da, qardaşım Xəzər də vardı" deyir. Gözləri yol çəkir. Evinin pəncərəsindən Xocalının keçmiş Xalça fabrikinin yerləşdiyi səmtə baxır... "Anam çox zəhmətkeş idi, - handan-hana dillənir. Ağlım kəsəndə ailəmizin bütün yükünü onun zərif çiyinlərində gördüm".

Anası Tamilla Ağamirzə qızı Xocalıya gəlin gəlmişdi. O, Laçın rayonunun Şamkənd kəndindən idi. Xocalının qoçaq, mərd cavanlarından olan Səyavuş tez-tez atına minib üzü dağlara çaparmış. Bir gün gənc, gözəl laçınlı qızını görüb ona könül verib. Qız da onu sevib. Ailə qurublar. Tamilla Ağamirzə qızının Xocalıda səadətli günləri başlayıb.

O, Xocalıda sayılıb-seçilən el ağsaqqalı Həkim müəllimin gəlini idi. Qayınatasının əsl adı Hakim olsa da, hamı ona Həkim müəllim deyirdi. O, uzun illər orta məktəbdə dərs deyirdi. Müəllim kimi də, ailə başçısı kimi də el-obada örnək insan idi.

İllər hələ ki, sevinclə, xoş hadisələrlə gəlib keçirdi. Artıq onların ocağında körpə səsləri eşidilirdi. Amma bir gün faciə baş verdi. Səyavuşu işlədiyi müəssisədə elektrik cərəyanı vurdu.

Qara xəbər qapqara bulud kimi onların sevincinin üzərinə çökdü. Dörd uşaq atasız qaldı. Ən kiçiyinin - Saranın üç yaşı vardı. Səyavuşun gənc yaşda vəfat etməsinə dözə bilməyən anası Nübar ağlamaqdan gözlərinin nurunu itirdi. "Atam da, babam da dünyadan köçdülər. Nənəmin səhhətində problemlər yarandı. Xankəndidə yaşayan, həkim işləyən bibim onu öz evinə apardı. Anam dörd uşağını böyütmək üçün zəhmətə qatlaşdı. Əkin sahəmizdə işlədi. Əllərinin qabarı ilə bizi böyütdü. Çəkdiyi qayğılar onu tez qocaltdı".

Tamilla ananın övladları sarıdan ürəyi arxayın idi. Uşaqlarının dördü də böyük-kiçik yeri bilən, ağıllı, tərbiyəli idi. Övladlarının barəsində yaxşı xəbərlər eşitdikcə ürəyi fərəhlənir, gələcəyə ümidi ona yorğunluğunu unutdururdu.

Artıq Xəzərlə Sara da böyüyürdülər. Xəzərin on altı, Saranın isə on dörd yaşı vardı. "Xəzər məndən iki yaş böyük idi. Balacalıqdan bir yerdə oynayırdıq. Çox sakit, olduqca tərbiyəli uşaq idi Xəzər. Elə istəyirdi ki, gücü çatdığı qədər hamıya kömək eləsin. Məktəbdə müəllimləri, qohum-qonşularımız ondan həmişə razılıq edirdilər".

Evləri Xocalının mərkəzində idi. Hələ ki, ikisi də orta məktəbdə oxuyurdu. Yoldaşları ilə məktəbə gedib-gələ-gələcəkləri barədə bir-birindən gözəl xəyallar qururdular. O xəyalların, şirin arzularının səfini erməni quldurlarının açdığı atəş səsləri pozdu.

Ermənilərin aranı qarışdırmaqda, qovğalar salmaqda məqsədləri nə idi? Bunu əvvəlcə xocalılı uşaqlar başa düşmürdülər. Amma gözlərinin önündə onları təlaşa salan hadisələr baş verirdi. O vaxtladək özlərini dost, mehriban qonşu kimi göstərən ermənilərin üzü dönmüşdü. Dəstələşib azərbaycanlılara hücum edirdilər. Getdikcə azğınlaşırdılar. Qarabağ ermənilərin məkri, fitnələri ilə münaqişə ocağına çevrilirdi.







"Ermənilər soydaşlarımızı qətlə yetirməyə başladılar. Artıq biz uşaqlar da vəziyyətin nə qədər ağır olduğunu başa düşürdük. Amma yenə də inanmırdıq ki, ermənilər yurdumuzu işğal edə bilərlər", - Sara Səlimova danışır.

Hələ Xocalı soyqırımı baş verməmişdi. Yollar tamamilə bağlanmamışdı. Helikopterlə də olsa, gedib-gəlmək mümkün idi. O zaman Tamilla ana iki qızı və kiçik oğlu ilə Bərdəyə qohumlarının evinə getdi. Ancaq onun yarıcanı Xocalıda qaldı. İllər əvvəl gəlin gəldiyi ilk vaxtlarda Tamillaya deseydilər ki, vaxt gələcək Xocalıya elə bağlanacaqsan ki, bu şəhərdən, doğma ocağından ayrı qala bilməyəcəksən, ona qəribə gələrdi. Ancaq o çətin günlərdə əmin oldu ki, öz evindən başqa heç yerdə rahatlıq tapa bilməz. Bir gün uşaqlarını yuxudan oyadıb dedi: "Qalxın, Xocalıya gedirik". Qohumları söylədilər ki, getməyin, vəziyyət çox ağırdır".

Tamilla uşaqları ilə birlikdə helikopterlə Xocalıya döndü. Şəhər düşmənin mühasirəsində idi. Və erməni quldurları Xocalının yeganə yolunu - hava məkanını da bağladılar.

Evin böyük oğlu polis əməkdaşı idi. İgid oğullar Xocalının özünümüdafiə dəstəsini yaradıb şəhərin keşiyində durmuşdular. Xəzər doğma şəhərinin düşmən əlinə keçməməsi üçün döyüşən mərd oğullardan biri olan qardaşına "Məni də apar" deyirdi. Ancaq "Sən anamızın, bacılarımızın yanında ol" cavabını eşidirdi.

Hər gün erməni quldurları Xocalıya güllələr yağdırırdılar. Onda zirzəmiyə qaçırdılar. Aranın sakitləşməsini gözləyirdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə də yenə ermənilər Xocalını atəşə tutanda zirzəmiyə sığındılar. Elə bilirdilər ki, atəş səsləri kəsiləcək, evlərinə qayıdacaqlar...

Qəflətən zirzəminin qapısı açıldı və əlisilahlı ermənilər içəri girdilər. Onları tanıdılar. Soruşdular: "Həkim müəllimin qohumlarısız?" Ermənilərin yaşadığı qonşu kənd səkkizillik olduğundan oranı bitirənlərin çoxu son sinifləri Xocalı məktəbində oxuyurdular. Yəqin aralarında bir zamanlar Həkim müəllimin şagirdi olanlar vardı. Təəssüf ki, azğınlaşmış ermənilər adını istər-istəməz hörmətlə çəkdikləri Həkim müəllimin gəlininə, nəvələrinə rəhm etmədilər.

Həyatının ən dəhşətli günündən danışır Sara: "Bizi əsir götürən ermənilər silahlı idilər. Amma hərbçi olmadıqları bilinirdi. Xəzəri onlardan təhvil almağa gələn ermənilər isə hərbçilər idilər. Gələnlər qardaşımı zorla maşına mindirdilər. Anam nalə çəkdi, özünü oğlunun üstünə atdı, onu maşından endirdi. Erməni hərbçilər Xəzəri yenidən maşına mindirdilər".

O arıq, cılız qadına güc gəlmişdi. Gah Xəzəri maşından endirir, gah da balasını aparmamaları üçün ermənilərə yalvarırdı. Oğlunu amansız düşmənin əlindən ala bilməyəcəyinə əmin olanda son qərarını verdi. "Onda məni də balamla aparın" deyib maşına mindi...

O gündən Tamilla Ağamirzə qızı Səlimovanın və Xəzər Səyavuş oğlu Səlimovun adları erməni işğalçıları tərəfindən girov götürülən və son taleləri naməlum olan xocalılıların siyahısına yazıldı. Axtarşlar cavabsız qalır, onlardan xəbər ala bilmirdilər.

İllər bir-birini əvəz etdi. On illər keçdi. Ümidlər azaldı. Qəsbkar ermənilərin əsir və girov götürdükləri azərbaycanlılara ağlasığmaz işgəncələr verdiklərini şahidlər təsdiq edirdilər. Sara Səlimova isə anasının və qardaşının həyatda olmadıqlarını özünə belə etiraf etməsə də, düşünürdü: "Kaş ki, o vəhşilər anama, Xəzərə çox işgəncə verməmiş olaydılar"...

İşğalçılar özgə torpaqlarında binələnmədilər. Qarabağ və Şərqi Zəngəzur yenə də öz əzəli sakinlərinindir. Azərbaycan dövləti həmin ərazilərini yenidən qurur. Öz yurduna geri qayıdan xocalılılar arasında artıq Tamilla Ağamirzə qızı Səlimovanın da övladları, nəvələri var.

Ermənistanın işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda geniş tikinti, quruculuq işləri aparılarkən aşkarlanan kütləvi məzarlıqlar qəsbkar ermənilərin dəhşətli cinayətlərini üzə çıxarır. Ötən ilin əvvəlində Xocalı şəhərinin mərkəzində (keçmiş Xalça fabrikinin yaxınlığında) qazıntı işləri zamanı tapılan daha bir kütləvi məzarlıqda yeddi nəfərin qalıqları olduğu müəyyən edildi. Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi tərəfindən onların hər birində zorakılıq əlamətlərinin olduğu, qətlə yetirilməzdən əvvəl ağır işgəncələrə məruz qaldıqları açıqlandı. Tibbi müayinələr zamanı onların üzərində küt alətlərlə yetirilmiş xəsarət izləri, iki nəfərdə isə güllə yarası aşkarlandı.

Şəxsiyyətləri dəqiqləşdirildi. Yeddi nəfərdən ikisi onlar - 1974-cü il təvəllüdlü Xəzər Səyavuş oğlu Səlimov və 1935-ci il doğumlu Tamilla Ağamirzə qızı Səlimova oldu. Martın 31-də dəfn mərasimləri keçirildi.

Nə qədər ağır, dəhşətli də olsa, doğmalarının son taleyini öyrəndilər. Gözləri yollardan yığışdı. Ancaq qəlblərinin qubarı, kədəri silinəcəkmi? Sara Səlimova gözlərinin dərinliklərində ömürlük yurd salmış qüssə ilə səssiz-səmirsiz cavab verir. Zamanın mənəvi yaraları birdəfəlik sağaltmağa gücü yetmir. Sara Səlimova yenə pəncərədən bir az aralıdakı Xocalının keçmiş Xalça fabrikinə tərəf boylanır...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 26 fevral (№ 43).- S.10.